**Avstriyalı və litvalı ekspertlər 11-13 fevralda milli qanunvericilik, ərazi, məkan və şəhər planlaşdırılması standartlarının hazırlanmasına dəstək vermək üçün Azərbaycana səfər edəcəklər.**

# Avropa İttifaqından Azərbaycana dəstək



Trend-in məlumatına görə, ekspertlər bu sahədə tətbiq edilə biləcək Aİ qanunvericiliyin icmalını və standartları təqdim edəcəklər, azərbaycanlı həmkarlarına onların tətbiqi ilə bağlı kömək edəcəklər.

Seminar Avropa Komissiyasının Texniki Yardım və İnformasiya Mübadiləsi Aləti (TAIEX) və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təşkil olunacaq.





# Ən qeyri-adi aeroportlar sırasında

*Heydər Əliyev Beynəlxalq Hava limanı dünyanın 3 ən qeyri-adi aeroporu sırasına daxil olub.*



Trend-in məlumatına görə, bu barədə “Hi-Tech” nəşrinin məqaləsində deyilir.

Qeyd olunur ki, Azərbaycanın əsas hava limanı həm də MDB-nin ən iri aeroportlarından biridir və öz qeyri-adi forması ilə qanadları xatırladır.

Məqalədə bildirilir ki, bu ilin mayında Heydər Əliyev Beynəlxalq Hava limanı “Skytrax World Airport Awards” tərəfindən beş ulduza layiq görülüb.

Həmin reytinqdə birinci yerdə Sinqapurun Çanqi aeroportu, ikinci yerdə isə BƏƏ-nin Dubay aeroportu qərarlaşıb.